# "ACILI-ŞİRİNLİ GÜNLƏR"DƏN

*1.Qaranlıqdan işığa*

Yazıçı Fatma Həsən qızının "Acılı-şirinli günlər" sənədli romanı görkəmli naşir Azərbaycanın ilk poliqrafçı alimi Şəddad Cəfərovun həyat yolundan bəhs edir. Əsər həm naşirlik, həm yazıçılıq fəaliyyəti ilə tanınan ədəbi qəhrəmanın ömrünün örnək ola biləcək məqamlarını əks etdirən ayrı-ayrı hekayətlərdən ibarətdir. Yazıçı bu hekayətləri bir-birinin davamı olaraq işləyib, nəticədə naşirin dolğun portiretini yaratmağa müvəffəq olub.

Hər bir insanın tale yolu orijinal həyat romanıdır. Hamının olmasa da bir çoxlarının bu həyat romanında elə qabarıq cizgilər var ki, istər-istəməz müasirlərinin diqqətini cəlb edir, qələm adamlarında özlərinə qarşı cazibə yaradır. İnsanlar nəinki özlərindən əvvəlki dövrləri, hətta öz zamanlarını belə yazıda göründə ona xüsusi maraq göstərir. Yazıdakı obrazlar həyatda tanıdığı şəxsi müqayisə edir, oxşar və fərqli cəhətləri ayırır, üst-üstə düşən məqamların təbiiliyini razılıqla qarşılayır. Biz yuxarıda dedik ki, hər bir insanın özü bir romandır, ancaq bu roman-insanların hamısı yazıya gəlmir, yazılsa da oxuya gəlmir. Demək o şəxslərin həyatı oxuya (eləcə də yazıya) gəlir ki, onun yaşanmış tale yolu maraqlıdır, mənalıdır. Ziddiyyətlərdən keçsə də, min bir ağrıacıya tuş gəlsə də məhv olmur, xırdalanmır... şəxsiyyət kimi həyat yollarında bütövləşir, ucalır, bir sözlə cəmiyyətin hər tərəfindən baxdıqda görünə bilir. "Acılı-şirinli günlər" salnamə romanına "Ön söz" yazan yazıçı publisist Mərhəmət Abiyev əsərə və onun qəhrəmanına münasibət bildirməsindən əvvəl hamını düşündürən suallar qoyur və həmin suallara cavab verməyə çalışır. Nəticədə əsərə ilkin rəy verən Mərhəmət Abinin maraqlı fəlsəfi düşüncələri ilə oxucu qarşılaşır və bu düşüncələr fonunda ədəbi qəhrəmanı özü dərk etməyə yönəlir: "Mənalı ömrün salnaməsi... bəşər övladına Allahdan bəxş olunan ömür payı hər kəs tərəfindən mənalı yaşanırmı?! Yaxud, yaşanan hər ömrün salnaməsini qələmə alıb gələcək nəsillərə yadigar saxlamağa ehtiyac varmı?! Yer üzünün əşrəfi sayılan insanların hamısı ilə bağlı, təəssüf ki, bu iki sualın heç birinə təsdiqedici cavab verə bilmirik. Çox da uzağa getmədən və subyektiv fəlsəfi təhlillərə varmadan elə ətrafımıza adi müşahidəçi gözü ilə baxdıqda yuxarıdakı sualların cavabında "yox" deyirik. Amma... bəşər övladına elə ona görə Yer üzünün əşrəfi deyilir ki, nisbi mənada hər yüz, bəlkə də min nəfərin içində bir nəfər MƏNALI ÖMÜR yaşayır, həm İRSİ-GENETİK olaraq, həm də ailədə və cəmiyyətdə aldığı DÜZGÜN TƏRBİYƏnin təsirindən tə uşaqlıqdan zəhmətə qatlaşır, bütün kin-küdurətdən, pisliklərdən, paxıllıqlardan uzaq olur, daim qurub-yaratmaq və hətta ona pislik edənlərə belə xeyirxahlıq etməyi özünün həyat anlamına çevirir, Zərdüşt peyğəmbərin bəşəriyyətə "Xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl" tövsiyəsini özünün şüarına çevirir, bir sözlə, Yer üzünün əşrəfi adlanmağa LAYİQ olur... məhz belə İNSANLARın hesabına adamların hamısı ali varlıq sayılırlar, məhz belələrinin ömür salnamələri qələmə alınmalı, ibrət dərsi kimi gələcək nəsillərə çatdırılmalıdır. Elə cəmi bəşər övladları da Yer üzünün əşrəfi adlandırıldıqları üçün onlara borcludurlar." Hələlik biz burada konkret ad görmürük, amma istər-istəməz insanlıq üçün ibrət olacaq bir obrazla qarşılaşacağımızı anlayırıq.

Söz, fikir adamları hər hansı bir həyat hadisəsinə seyirçi yanaşa bilməz... xüsusi ilə əgər həmin həyat hadisəsində hər kəsi düşündürə biləcək bir məna görürsə...

"Acılı-şirinli günlər" əsərində əsas obraz kimi görünən Muğdatoğlu həyatdan tanıdığımız prototipə çox yaxındır. Müəllif yazıya gətirəcəyi obrazı yaxşı öyrənib, onun həyat tarixçəsini və yaşadığı dövrü bütün psixoloji incəliklərinə qədər mənimsəyə bilib. Ona görə də əsərini elə bu təbii əhvalatlar üzərində qurmağa üstünlük verib. İlk hekayət "Dünyaya göz açan oğlan" adlanır. Müəllif təsviri təbiətin fonu ilə başlayır: "Qışın oğlan çağı idi. Şaxtalı Bakı küləyi adamı qılınc kimi kəsirdi. Külək qarı yerdən sovurub adamların üzünə-gözünə çırpırdı.

Muğdat kişi də beləcə qara düşmüşdü. Bülbülə Neft Mədənindən gəlirdi. O, bu uzaq yolu beləcə piyada gedibgəlməyə adət etmişdi.

İndi də heç nəyə əhəmiyyət vermədən, ayağının altındakı qarı xırtıldadaxırtıldada evə çatmağa tələsirdi." Bu kiçik təsvir başlanğıcda biz qışın soyuğunu, çovğunu, qarı təsəvvür edirik, amma həm də onu anlayırıq ki, evə tələsən şəxsin nigaranlığı var. Sonra, müəllifin verdiyi məlumatdan aydın olur ki, bir ana ağrı çəkir. Dünyaya gətirəcəyi uşağının ağrısını... evə tələsən kişi isə həmin uşağın atasıdır. Ömür-gün yoldaşına həyan olmaq, dünyaya gələn uşağının ilk çığırtısını eşitmək üçün evə can atır. Onun keçirdiyi həyəcanları da başa düşmək olar, amma burada başqa bir məsələ də diqqəti cəlb edir: Dünyaya insan gəlir, bu gəliş qışın çovğunu, qarı ilə müşayiət olunur, hələ üstəlik dünyanın da üzündə ölüm vahiməsi gətirəcək təhlükəli küləklər əsməkdədir. Bəli, söhbət qırxıncı ilin əvvəlindən gedir. Faşizim dünyanı müharibə ilə hədələyir. Müharibə isə ölümlər, qanlar deməkdir, xarabazarlıqlar, fəlakətlər, səfalətlər deməkdir, aclıq, ehtiyac deməkdir. Birinci hekayətin sonunu müəllif müharibənin gətirdiyi acı küləyin soyuqluğu ilə bitirir: "Nəsibə özünü saxlaya bilmədi. Bayaqdan sinəsində tüğyan edən həyəcan, qorxu və müharibə sözünün vahiməsi, indi də Muğdatdan ayrılacağı xəbərini eşidəndə dözmədi, körpə Şəddadı sinəsinə basıb hönkür-hönkür ağladı." Bu bir neçə cümlənin içərisində bütöv bir ölkənin qarşılaşdığı fəlakətin mahiyyəti cəmlənib.

"Çətin günlər" adlanan hekayət taleyin ümidinə buraxılmış ailənin müharibə illərindəki günündən, güzaranından bəhs edir. Adamlar çalışırlar ki, dolanışıq yolu tapsınlar. Heç olmasa uşaqları aclığın dəhşətli caynağından xilas etsinlər. Şəhərdə dolanışığın çətin olmağı Nəsibə ananı məcbur edir ki, balalarını da götürüb doğma Gərmətük kəndinə qayıtsın. Ailənin kənddəki həyatı ilə oxucu yazıçının "Kənddə" adı ilə verdiyi hekayətlə tanış oluruq. Əlbəttə, nə qədər çətin olsa da ailənin sevindiyi günlər də olurdu. Bütün ailə üzvləri qazancını toplayıb inək almaq istəyir. "Ailənin sevinci" adlanan həmin hissədə insan ümidlərinin, inamlarını mahiyyətini görmək çətin deyil: "Nəsibə inəyin boğazına bağlanmış uzun ipi evin qabağındakı armud ağacına bağladı. Tez vedrədə su gətirib qabağına qoydu. İnək yol gəldiyindən bərk susamışdı. Vedrədəki suyun hamısını içdi. Xudadat qabaqcadan hazırladığı küləş topasından bir qucaq gətirib inəyin qabağına tökdü.

Nəsibə inəyə soyuq olacağından ehtiyat edərək köhnə adyalla onun belini örtdü. İnək sakitcə küləşdən bir çəngə ağzına alıb, gövşəməyə başladı." Bir-birinin arxasınca ötən günlər nə qədər ağır olsa da ailənin yaşamaq əzmini qıra bilmir. Uşaqdan böyüyə hamı işləyir, yəni evə çörək gəlir. Saxladığı inəyin südü ilə yavanlıq olur, "Bolluq", "Qisas qiyamətə qalmaz" hekayətlərində kədərlə sevincin bir-birini əvəz etməsini, ibrətli hadisələrin baş verməsini müəllif həyati detallarla yaddaşda qalacaq gücdə verə bilir. Biz bu yerdə həqiqətən maraq doğuran ibrətli bir əhvalatla da tanış oluruq. Nəsibə ananız yadınızdan çıxmayıb ki, ailəyə zülm edən Kəlbi adlı bir şəxs olub. Bu barədə dayısı Əbülfəzdən soruşarkən qəddarlığı və zülmkarlığı ilə ad çıxarmış Kəlbinin ibrətli sonluğu haqqında məlumat alır: "Dediyin o Kəlbi çox adamlara pislik eləmişdi. Bilirsəndə ki, hər yerdə aclıqdır. Kimi işləyir, əkir, biçir, yaşa-yır, kimi də əlini ağdan-qaraya vurmayıb ac qalır. Kəlbi də öz şəxsiyyətinə sığışdırmadı. Dedi: - Mən vəzifə sahibi olmuşam. İşdən çıxarsalar da öz mənliyimi itirən deyiləm. İşləməyəcəm. Dediyinin üstündə durdu. Oğlanları əsgər getdi. Arvadı öldü. Özü də acından ölməmək üçün ev əşyalarını bir-bir satdı. Sonra da necə oldusa evlərinə od düşdü və axırıncı dirəyinə kimi yanıb kül oldu. Qaldı quru yurdda. Kənddə heç bir kəs öz evində ona künc vermədi. Günlərin bir günü büdrəyib düşdü xəndəyə. Elə orada da öldü. Bilirsən, qızım, kəfən də tapılmadı onun üçün, elə paltarqarışıq basdırdıq. Odur ki, atalar yaxşı deyib: "Sən saydığını say, gör fələk nə sayır". Pis əməllərinə görə Allahın qəzəbinə gəldi. Ona görə də hörmətsiz öldü, hörmətsiz də basdırıldı." Çox ibrətli sonluqdur. Bəlkə də, bütün yazıçıların yaratdıqlarını bir ümu-mi məqsəd eyni müstəviyə gətirir. Yazıçı istəyir ki, insanlar olub, keçənlərdən ibrət götürsünlər və yəqin ki, yazıçı Fatma Həsən qızı da çox təsirli səhnəni elə bu məqsədlə oxucunun diqqətinə çatdırır.

Müəllif öz qəhrəmanının həyatını birəl-birəl izləyir. Onu həyatın görünən və görünməyən tərəflərində nəzərdən qaçırmır. Burası da var ki, o, izlədiyi obrazı, yəni Muğdatoğlunu cəmiyyətdən ayırmır, ailədən qoparmır. Onu hər vaxt insanlar arasında görür, öz mühitində təqdim edir. "İkiqat sevinc" hekayətində Muğdatı qardaşı Xudadatı görürük. Ümumiyyətlə, Fatma Həsən qızı, Baba Hüseyn Cəfərovdan üzü bəri bu ailəni klassik ailə tipi kimi təqdim edir. Bu ailənin hər bir üzvünə əsərdə dolğun səhifələr ayrılır. Nənə Ağabanu, ana Nəsibə, qardaşlar Xudadat və Əbdülmənaf... bir sözlə ailənin digər üzvləri də salnamədən kənarda deyil. "Yenidən Bakıda" hekayətində ailəni biz təzədən paytaxtda görürük. "İlk iş günü" hekayəti sanki Muğdatoğlunun tale yolunu birdəfəlik müəyyən edir. O, işdə tez tanınır, bacarığı, fərasəti ilə seçilir, öz üzərində çalışır, təhsilini davam etdirir.

...Və "Yeni arzular" başlanır. O, artıq ömrünü mətbəə işinə bağlamışdı bu yolu sevgi ilə seçmişdi. "Niyyətin hara, mənzili ora"... bu hekayətlər təkcə yaşca yox, həm də mənən böyüyən Muğdatoğlu Şəddadı oxucunun gözlərində ucaldır. "Əsgərlik həyatı", "Məzuniyyət və...", "Yeni qayğılar, yeni arzular", "Yeni direktor" hekayətləri Muğdatoğlu Şəddadın hərbi xidmətdən keçən, yenidən istehsalata qayıdan ömür yoluna işıq salır. Təzədən öz kollektivində fəaliyyət göstərmək onun üçün xoşdur. Onu burada yaxşı tanıyırlar. Ali təhsilli olması, işini yaxşı bacarması, kollektivin hörmət və nüfuzunu qazanması, onun üçün yeni, aydın üfüqlər açırdı. Şəddad Muğdatoğlunu 26-lar mətbəəsinə baş mühəndis təyin edirlər. Bu hekayətdə ("Baş mühəndis") onu istehsalata rəhbərlik edən mütəxəssis kimi görürük. Bu hələ son deyil. Rəhbər vəzifədə uğurla işləməklə bərabər insanlara qayğıkeşlik, hər kəsə diqqət göstərmək... bütün bunları da o, özünə borc bilirdi. "Ana arzusu", "Paxıllıq öz işini görsə də" hekayətləri Muğdatoğlu Şəddadın həyatının əxlaqi, mənəvi saflıq uğrunda mübarizə dövrünü əks etdirir. Və nəhayət, onun həyatının yeni dövrünü - "O, kənddə bir qız gördü" hekayətində zamanın psixoloji mühitini bütün dolğunluğu ilə görürük. Şəddadın evlənmək vaxtı idi. Doğma kəndlərinə qayıdıb qohum toyunda iştirak edəcəkdi. Burada Lənkaran Pedoqoji Texnikumunda oxuyan bir qızı görür. Çətinliklə də olsa onu müşahidə edə bilir. Qızın davranışı, adamlarla rəftarı, abırlı, isməti hərəkətləri... xüsusi ilə təmkini və əlbəttə ki, gözəlliyi onun qəlbini ovsunlayır. Nəhayət, kənddə qonaq olduğu müddətdə yaxın adamları ilə birgə yolunu həmin qızgilin evindən salır. Çay qonaqlığından sonra elə oradaca xəlvətə salıb bibisinə fikrini bildirir: "Qonaqlar Seyidəli kişigildə xeyli oturdular.

-Hə, daha getmək vaxtıdır. - Lalə bibi qurcalandı. Şəddad yerindən tərpənmək istəmədi. O, sözlü adam kimi Lalə bibiyə baxdı. Lalə bibi oğlanın baxışından başa düşdü ki, qardaşı oğlu ona nə isə demək istəyir. Başını ona tərəf əydi. Şəddad bibisinin qulağına pıçıldadı:

-Bibican, qızın valideynlərinə de ki, Bakıya gedən kimi elçi göndərəcəyəm.

Bibi əhvalı daha da durulmuş halda gülümsədi. Başı ilə razılıq işarəsi verdi. Onlar ayağa qalxdılar. Ev yiyəsi ilə görüşüb, həyətə endilər.

Həyətdə Lalə bibi Fatmanın anasını yana çəkdi..." bu kiçik epizodda biz Muğdatoğlunun həssaslığını, dövrün əxlaq qaydalarına müqəddəs dəyər kimi baxdığının şahidi oluruq. Onun təbiətindəki sözübütövlük, insana hörmət və ehtiram, hər kəsə ləyaqətlə yanaşmaq... kimi keyfiyyətləri bu bir neçə cümlənin alt qatından aydın görmək olur. əslində cəmiyyətin mənəvi mühitini belə adamların tənzimlədiyini görmək, belə adamlara inanmaq, həm də həyatın nikbin davamına inanmaq deməkdir, bütövlükdə insanlığa inanmaq deməkdir. Romanı həssaslıqla təhlil edən Mərhəmət Abi Şəddad Cəfərov obrazını xarakterizə edərkən qətiyyətlə bildirir: "Şəddad Cəfərovun leksikonunda bəlkə də "başqası", "yad", "kənar adam" sözləri yoxdur. O, istər dostu-yaxını, qonum-qonşusu, qohum-qardaşı, istərsə də tanımadığı təsadüfi adam olsun, fərqinə varmır, köməyə ehtiyacı olan üçün əlindən gələni əsirgəmir." Əlbəttə, bu qeydləri mütəxəssis oxucu rəyi kimi də qəbul edə bilərik, sıradan bir oxucu münasibəti kimi də anlamaq olar. Amma hər halda bu həssas yanaşmadır. Həyatdakı canlı insanın, bədii əsərdəki əksi kimi düşüncəmizdə doğmalaşan obrazı əslində hər birimiz elə o cür görürük.

Fatma Həsənqızının "Acılı-şirinli günlər"i maraqla oxunur çünki, hər hadisənin yeri və məkanı özünə uyğun psixoloji dəqiqliklə yazıda təsdiqlənir. Bununla da müəllif qəhrəmanını həyatın axarında göstərə bilir. Amma, biz həyatın axarında göstərilən ədəbi qəhrəmanı axında yox, axarda görürük. Yəni, həyatın axarı onun iradəsinə hökm eləmir. Daha doğrusu hökm eləyə bilmir. Əksinə, o, iradəsinin gücünə ümumi axarın içərisində öz yerini və yolunu dəqiq tapır. Hətta, düşdüyü yerdə, məkanda mühiti idarə edir. Bir çox hallarda mühit ona uyğunlaşmağa yönəlir. Çünki, savadı, bacarığı, iti düşüncəsi ilə hər hansı bir vəziyyətdən çıxmağın ən düzgün yolunu məqamında göstərə bilir. İstər ilkin istehsalat dövrü olsun, istərsə də, hərbi xidmət, hətta Moskva mühitindəki təhsil illəri... harda olur olsun onun işıqlı siması tez görünür. Həmyaşıdları onunla ünsiyyətə can atır, onun ətrafında olmaqdan məmnunluq duyurlar.

Yazıçı Fatma Həsən qızı əsərinin baş qəhrəmanını həyatın bütün tufanlarından uğurla çıxa bilən bir şəxsiyyət kimi tərənnüm edir.

***(Davamı var)***